**AYŞƏN PAŞAYEVA**
**Bakı Avrasiya Universiteti**
**pashayevzeynal@mail.ru**

# ƏFRASİYAB (ALP ƏR TONQA) TÜRK TARİXİ QƏHRƏMANI KİMİ (NİZAMI İLƏ MÜQAYİSƏDƏ)

**Açar sözlər:** Əfrasiyab, Nizami, Firdovsi, Şahnamə, Xəmsə, türk qəhrəmanları, dastan, türk eposu.
**Ключевые слова**: Афрасияб, Низами, Фирдовси, Шахнаме, Хамсе, тюркские герои, дастан, тюркский эпос.
**Key words:** Afrasiyab, Nizami, Ferdowsi, Shahnameh, Khamsa, Turkic characters, dastan, Turkic epos

Türk tarixində dünyaya hakim olmaq istəyi ilə böyük mübarizələr aparan qəhrəmanlar əhəmiyyətli bir yer tutur. Bu hökmdarlar və qəhrəmanlar ətrafında baş verən tarixi hadisələrin bir qismi yazılı sənədlərdə yer alarkən, bir qismi də yüz illər boyunca xalqın yaddaşlarına həkk olunmuş və şifahi olaraq nəsillərdən-nəsillərə ötürülərək bu günümüzə qədər gəlib çatmışdır. Belə tarixi qəhrəmanlardan biri də Alp Ər Tonqadır. Adı “Divani lüğət it türk”də *Əfrasiyab* və *Alp Ər Tonqa*, “Qutadqu-bilik”də isə *Əfrasiyab* şəklində qeyd olunub.

Bu obraza biz Nizaminin “Xosrov və Şirin” əsərində rast gəlirik. Sənətkarın Məhinbanu surətində onun əxlaqi-mənəvi görüşləri öz əksini tapmışdır. Poemada Məhinbanu-Şəmira epizodik surətdir.Amma əsas hadisələrlə o qədər əhatəli verilmişdir ki,onsuz əsər yarımçıq görünər.-Məhinbanu həyatı qardaşı qızından daha yaxşı bilir.O,həyatın şəri haqqında ona bəzi məsləhətlər verir.Onu ayıldır,hislərinə nəzarət etməyi nəsihət edir.O,bu nəsihətləri ilə özü kimi ağıllı,iradəli,ismətli bir türk qızı böyütmüşdür.O,bibisinə and içir ki,kəbinsiz Xosrova arvad olmayacaq. Bibisinin nəsihətlərindən əvvəl Xosrovun arxasınca Mədainə gedən yüngül Şirin dəyişir,ucalır.Məhinbanu ona nəsihət etdiyi kimi o da Xosrova nəsihət edir.Məhinbanu Şirinə öyüd verərkən Xosrovu İranlıların hökmdarı Keyxosrov, özlərini isə türk hökmdarı Əfrasiyabla (Alp Ər Tonqa) müqayisə edir:

Bir gülə bənd olmaz кönül bülbülü.
Bir gövhərdən əgər düşsə uzağa,
Cəhd eyləyər onu satın almağa.
Görsə кi, vəfalı, ismətli qızsan,
Elçi göndərəcəк adətlə, inan.

Adın bu dünyada namuslu qalar,
Olarsan cahanda böyüк höкmdar.
Əgər o aydırsa, biz afitabıq,
O, Кeyxosrov, bizsə Əfrasiyabıq (6, s119).

Bütün bunlar da Məhinbanunun və Şirinin türk olmasına şübhə yeri qoymur.

Əfrasiyab (Alp Ər Tonqa) kimdir?

"Mahmud Kaşğarı "Divan"ında ,eləcə də "Qutadqu bilik" də "Şahnamə"dəki aparıcı və başlıca surətlərdən olan Əfrasiyabın prototipinin miladdan əvvəl VII əsrdə yaşamış qədim türk-Saqa hökmdarı Alp Ər Tonqa olduğu qeyd edilir. Müasir türksünaslıq da bu fikri təsdiq edir" (1, 172).

Alp Ər Tonqa haqqında olan mənbələrin azlığından onun adı ətrafında müxtəlif mülahizələrin yaranmasına səbəb olub. "Mənbələrdə igidliyi ilə ad çıxarmış, əxlaqlı türk hökmdarı Alp Ər Tonqa VIII əsrdə karluqların xanı və ya türk sərkərdəsi olmuşdu. Karluqlar XI əsrdə müsəlman Qaraxanlılar dövlətini yaratdılar. Qaraxanı türkləri bu iki sərkərdəni eyniləşdirirdilər. Turanda Əfrasiyab hakimiyyətə gələndən sonra İran-Turan qarşıdurması qızışır. Əfrasiyab dəfələrlə iranlılara qalib gəlir. Əfrasiyabın dövründə sak-sarmat tayfa birliyinin məskunlaşdığı ərazilərə Turan deyilirdi" (13).

Alp Ər Tonqa ilə bağlı türklərə məxsus dastan da vardır. Bu dastan geniş miqyasda Firdovsinin "Şahnamə" əsərində öz əksini tapmışdır. Firdovsi, təbii olaraq, Əfrasiyabı öz əsərinin baş qəhrəmanı seçməmiş, onunla bağlı dastanı İran qəhrəmanlarının zəfəri ilə tamamlamağa üstünlük vermişdir. Yenilməz bir cəngavərə iranlıların zəfər çalmasını bir möcüzə kimi alqışlamışdır. Mənbələrdə Əfrasiyab adı "çox güclü", "igid" mənalarında izah olunur. Firdovsinin "Şahnamə" əsərində Əfrasiyabın (Alp Ər Tonqa) qəhrəmanlığı təsvir olunur:

Turanda nə çox pəhləvan görmüşəm,
Bununtək dilavər, bununtək qoçaq,
Verən olmamış türk elindən soraq.
Onun cənginə keçsə, hər namidar,
Önündə iki ordunun xar olar.
Döyüş vaxtı dağ üstə çapsa atı,
Üzəngiylə yeksan olar dağ qatı (11,s 412).

Əsərdə "Əfrasiyab cəsur bir timsah, ov günündə erkək bir aslan, döyüş zamanında da bir döyüş fili kimidir" deyilərək onun nə qədər böyuk qəhrəman olduğu izah edilməyə çalışılmışdır.

Bu əsərdə Alp Ər Tonqa ilə bağlı məlumatlar qısaca belədir: "Turan xaqanı İran torpağının əsas qismini hakimiyyəti altına almışdı. Keykavus Turana qarşı hərb elan edərək, komandanlığa oğlu Siyavuşu təyin etdi. Turanlılar İran torpağını tərk etdilər. İndi müharibə müdafiə xarakterindən çıxaraq, hücum forması alırdı. İran ordusu Turan torpağına keçəcəkdi. Bu əsnada Əfrasiyabdan elçilər gəldi. Əfrasiyab barışıq təklif edirdi. Siyavuş barışıq təklifini qəbul etdi, hərbi bitirmək üçün atasına xəbər yolladı. Keykavus, Siyavuşdan gələn bu təklifə qızdı – onu sərkərdəlikdən çıxardı, yerinə digər birisini təyin edib, müharibənin davamını hökm etdi. Siyavuş isə barışıq təklifini atasının inadından üstün tutduğundan İranı tərk edib, bir neçə seçmə süvarisiylə Turanda sığınacaq tapdı. Bu sığınacaqla Siyavuşun məqsədi özündə qarışmış olan iki irqin qanını artıq boş yerə axıtmamaq idi. Bunun üçün İranla Turanı barışdırmaq lazım idi. Xaqanın qızı Firəngizlə evləndi. Nəhayət, Əfrasiyabın qəzəbinə tuş gəlib, başı kəsildi. Haqsız tökülən qan üçün İranla Turan bir-birinə qarışdı və əsrlər uzunu qan axdı. Turun soyundan gələn Pəşəngin oğlu Əfrasiyab İran taxt-tacı üçün ən böyük təhlükədir. Sonrakı dövrlərdə Əfrasiyab tez-tez İran torpaqlarına hücumlar edər və nəhayət, öldürülür" (bax:15).

Alp Ər Tonqa ilə bağlı mötəbər mənbələrdən sayıla biləcək Yusif Balasaqunlunun "Qutadqu -bilik"əsərinə də müraciət edək. O yazır: "Türk bəyləri arasında şanlı insanlar çox olub, onlar böyük ölkə başçılarından da şöhrətlidirlər. Onların içərisində şanlı, igid Alp Ər Tonqa vardır. O, öz xalqına rəhbərlik etdiyi dövrdə Taciklər onu Əfrasiyab adlandırırdılar". Əsərdə eyni zamanda yazılır ki, Qaraxanlı dövləti Orta Asiyada, Doğu və Batı Türküstan bölgələrində qurulmuşdur. Bu dövlət bəzi tarix kitablarında "Dövləti-Ali-Əfrasiyab" (Əfrasiyab soyunun dövləti) və Dövləti-Xani-Türküstan" adı ilə tanınır (bax:13).

"Alp Ər Tonqa ilə bağlı Uyğur türkləri arasında yayılan şifahi ədəbiyyata keçməzdən əvvəl, onun haqqında tarixi yazılı mənbələrdə yer alan məlumatları dəyərləndirmək düzgün olardı. Alp Ər Tonqa ilə bağlı ilk yazılı məlumatlara "Avesta"da rast gəlirik. Bu əsərdə Alp Ər Tonqa hiyləgər və pis bir insan tipini təmsil etdiyi kimi, İranlıların da əsas düşməni olaraq göstərilir" (10).

Türk mənbələri arsında Alp Ər Tonqa haqqında ən ətraflı məlumat XI əsrin ikinci yarısında Qaşqarlı Mahmud tərəfindən yazılan "Divani lüğət-it-türk" adlı əsərdə rast gəlinir. Alp Ər Tonqanın adı İran mənbələrində Əfrasiyab kimi verilir. Qaşqarlı əsərində müxtəlif kəlmələri izah edərkən Alp Ər Tonqa ilə bağlı əhəmiyyətli məlumatlar verməkdədir. Məsələn, "Xan" kəlməsini izah edərkən, bu kəlmənin türklərin ən böyük başçısı mənasını verdiyini və Əfrasiyabın oğullarına da xan deyildiyini bildirir. Bundan əlavə Əfrasiyabın xaqan olduğunu və bu adın verilməsində uzun

tarixi bir hekayənin olduğunu deyir. Yenə "Qaz" kəlməsinin izahını verərkən, bunun Əfrasiyabın qızının adı olduğunu bildirərək, Əfrasiyab və onun yaşadığı yerlər haqqında geniş məlumat verir. Ayrıca Əfrasiyabın Qaşqar şəhərinin havasını bəyəndiyi üçün orada yaşadığı bildirilir. "Çarıq" oymağı haqqında məlumat verərkən "Barşuq" şəhərinin Əfrasiyabın şəhəri olduğu deyilir (bax: 4,s 30).

Tədqiqatçıların bəziləri Alp Ər Tonqanın Saka hökmdarı olduğunu iddia edərkən, bəziləri də Buqu Han,Oğuz-xan və Tonqa Təkin olduğunu iddia edirlər. Son tədqiqatların birində Tonqa Təkinin tarixi prototipi ilə bağlı yeni bir versiya irəli sürülür. Bu versiyada Mahmud Kaşğarinin "Divan"ındakı Alp Ər Tonqa 587-600-cü illərdə Şərqi Göy türkün hökmdarı Tonqa Turan adlı sərkərdə ilə eyniləşdirilir (2,s 176). Bundan əlavə tədqiqatçıların bəziləri Alp Ər Tonqa ilə tarixi mənbələrdə "Əfrasiyab" adlı qəhrəmanla fərqli insanlar olduğunu desələr də, bu mövzuda hər iki adın eyni insana aid olduğu iddiasında tarixçilərin böyük çoxluğunun həmfikir olduğunu deyə bilərik.

Alp Ər Tonqa və onun tarixi şəxsiyyəti haqqında yazılı mənbələrdə yer alan məlumatları və tədqiqatçıların bu mövzuda fikirlərini verdikdən sonra, günümüzdə Uyğur Türkləri arasında Alp Ər Tonqa haqqında danışılan şifahi ədəbiyyatdan nümunə gətirmək yerində olacaqdır. Türk tarixində və mədəniyyətində həm qəhrəmanlığı, həm də idarəçiliyi ilə dərin iz buraxan Alp Ər Tonqa, Uyğur türklərinin yaddaşında da yüz illər boyu saxlanılmış və onun haqqında müxtəlif nağıllar ortaya çıxmışdır. "Uyğur Türkləri arasında "Əfrasiyab" olaraq tanınan Alp Ər Tonqa, nağıllarda "padşahların padşahı və müdriklərin müdriki" olaraq şərh edilmiş və onun dövründə cəmiyyətin rifahının yaxşılaşdırılmasına və millətin birlik və bütövlüyünə dair əhəmiyyətli islahatların başladığı dilə gətirilmişdir. Bu nağıllarda onun qəhrəmanlığından çox xalqın problemləri ilə yaxından maraqlanan bir idarəçi olduğu və bu problemlərə sadə həllər tapdığı danışılır" (4,s 112). Bu nağılların ilki toy mərasiminin yaranması mövzusundadır:

Həmin nağıllarda insan həyatının keçid dövrlərindən biri və ailə təməlinin ilk addımı olan evlənmə və buna bağlı olaraq toy mərasiminin ilk dəfə Alp Ər Tonqa dövründə yarandığından bəhs olunur. Burada Alp Ər Tonqanın xalqı sülh içində saxlamaq; insanlar arasında ədəb-ərkan və əxlaqı yaratmaq; səhv düşüncələrin qarşısını almaq üçün toy mərasimini yaratdığı görülməkdədir (bax:12).

Alp Ər Tonqanın adının çəkildiyi nağıllardan ikincisi isə ölümə aid adətlərin yaranması ilə əlaqədardır. Bu mövzudakı nağıl belədir:

Onu da qeyd edək ki, Alp Ər Tonqanın özünün də ölümünə həsr olunmuş ağılar da Mahmud Kaşğari "Divan"ında yer alır. Ölümünə ağı-mərsiyə qoşulan Alp Ər Tonqa türk tarixinin hansı zaman kəsiyinin

şəxsiyyəti olmasına baxmayaraq, nəsildən-nəsilə yaşamış, adına dastanlar qoşulmuşdur. Türk şeirinin ən əski örnəyi Alp Ər Tonqanın ölümünə həsr edilmiş ağıda onun ölümündən türk ellərinin kədərlənməsi, yasa batması göz yaşları ilə qələmə alınır. Ağı başdan-başa dördlüklərdən ibarətdir. Şair Alp Ər Tonqanın ölümünü ümumxalq matəmi kimi mənalandırır.

Əlinə qopuz alıb oxuyan ozan bu acı mənzərəni seyrə dalaraq ona şeirlər qoşmuş, ulu xaqanın ölümünə qəlbən acımışdır:

Alp Ər Tonqa öldümü,
Dünya yiyəsiz qaldımı,
Tale öcün aldımı,
Artıq ürək yırtılır (4, s112).

Ağıda göstərilir ki, onun yoxluğu ilə sanki bütün türk ellərinin ümidi, pənahı qırılmışdır.

Başqa bir nümunəyə də baxaq:

Könqlüm için örtədi
Bitmiş başığ qartadı
Keçmiş ödük irtədi
Tün gün keçüp irtəlür (2,s 176).

(Könlüm için-için yandı, sağalmış yaramı yenə doğradı. Könlüm keçmiş günləri aradı. Gecə-gündüz keçib-getdikcə yenə arayır).

Uyğur Türkləri arasında çalğı alətləri və onların yaranması haqqında bir çox nağıllar var. Bunlardan rübabın (kamanın) yaranmasına aid maraqlı olanı belədir:

Bu nağılda Alp Ər Tonqanın paytaxtının Qaşqar olduğunu və xalqın əylənməsi üçün rübabı, sonra da dütarı kəşf etdiyi deyilir. Alp Ər Tonqanın Qaşqarda yaşadığı məlumatı tarixi mənbələrdəki məlumatlarla eynidir. Burda Alp Ər Tonqanın rübabı icad etmək səbəbi xalqını əyləndirmək istəyidir ki, bu da onun xalqın müxtəlif problemlərinə həll tapdığı və musiqi alətlərini icad edərək də mədəniyyət qəhrəmanı olduğunu göstərməkdədir (12).

Nəticə olaraq İran, ərəb və türk şifahi və yazılı qaynaqlarda böyük bir qəhrəman və hökmdar olaraq yer alan Alp Ər Tonqa (Əfrasiyab), Uyğur, Qaraxanlı və Səlcuqlu dövlətinin hökmdarlarının əcdadı olaraq qəbul edilməkdədir. Bundan əlavə, Alp Ər Tonqa zamanın və məkanın sərhədlərini aşaraq yüz illər boyu Türk boylarının ortaq qəhrəmanlıq simvolu olmuşdur.

Xalqın yaddaşında dərin izlər buraxan Alp Ər Tonqa, yüz illər boyu yazılı mənbələrdən əlavə şifahi ədəbiyyatda da yaşadılmış və onun haqqında müxtəlif əfsanələr yaranmışdır. Bu əfsanələr bizə Alp Ər Tonqanın hökmdarlıq və qəhrəmanlıq xüsusiyyətləri ilə yanaşı,

mədəniyyət qəhrəmanı olaraq türk mədəniyyətinə faydalarını göstərməsi tərəfindən çox vacibdir.

## Ədəbiyyat


1. Azadə R. Nizami Gəncəvi (həyatı və sənəti). Bakı: Elm, 1979, 207 s.
2. Azərbaycan ədəbiyyatı tarixi. II cild. Bakı: 2007
3. Azərbaycan ədəbiyyatı tarixi. Bakı:1960
4. Ələsgərova Sakibə. Türk xalqları ədəbiyyatında vəzn və janr sistemi. Bakı: 2016
5. Firdovsi Ə. Şahnamə. Bakı: 1987
6. Gəncəvi Nizami. Xosrov və Şirin. Bakı: Lider nəşriyyatı, 2004, 391 s.
7. Gəncəvi Nizami. Xosrov və Şirin. Filoloji tərc., izah və qeydlər Həmid Məmmədzadənindir. Bakı: Elm,1981
8. Xəlilov B. Mahmud Kaşğarinin "Divani lüğət-it-türk" əsərində etnonimlər. Bakı: 2009, 294 s.
9. Rəsulzadə M.Ə. Azərbaycan şairi Nizami. Bakı: Təknur, 2011, 519 s.
10. https//kayzen.az >blog >avesta- həqiqəti
11. Əbülqasim Firdovsi – pdf elibrary.bsu.az> kis >Firdovsi
12. turkoloji.cu.edu.tr/.../adem_oger_alp_er_tonga_uygur_anlat..
13. axar.az/news/kult/84207.html
14. guntaytarix.blogspot.com/2013/08/qaraxanllar-dovllti.html
15. www.rasulzade.org/books/5_1.html


**А. Пашаева**

## Афрасияб (Альп Ер Тонга) как герой тюркской истории (в сравнении с Низами)

### Резюме


Герои, которые вели великую борьбу с желанием стать правителем мира, занимают важное место в тюркской истории. Часть исторических событий, происходящих вокруг этих правителей и героев, дошла до наших дней, найдя отражение в письменных документах, другая часть, в устной форме передаваясь из поколения в поколение, на века осталась в памяти народа. Одним из таких исторических героев является Альп Ер Тонга. В «Дивани лугет ит тюрк» он отмечен как Афрасияб Альп Ер Тонга, а в «Гутадгу-билик» как Афрасияб. Этот образ мы встречаем в произведении Низами «Хосров и Ширин».

По его совету Махинбану вырос с умной, своевольной, дорогой турецкой девушкой. Мехинбану относит себя к роду тюркского правителя Афрасияба. В тюркском происхождении Мехинбану и Ширин сомнений не остается.

В источниках имя Афрасияб толкуется как "очень сильный", "герой". У тюрков есть дастан, связанный с именем Альп Ер Тонга. Этот дастан нашел широкое отражение в произведении Фирдоуси "Шахнаме". Легенды о нем наряду с особенностями правления и героизма Альп Ер Тонга, очень важны с точки зрения значимости этого героя для тюркской культуры.

**A .Pashayeva**

**Afrasiyab (Alp Er Tonga) as a character of Turkish history (Compared to Nizami)**

**Summery**

In the Turkic history, the characters who are struggling with the desire to dominate the world take an important place. Some of the historical events happened around these rulers and characters took place in written documents. Some of them have been housed in the memory of the people for centuries, and have been transmitted verbally from generation to generation till the present day. One of such historical characters is Alp Er Tonga. The name Afrasiyab and Alp Er Tonqa is mentioned in "Divani luget it turk", and the name Afrasiyab is mentioned in the "Qutad-bilik". We find this character in Nizami's work "Khosrow and Shirin". Mahinbanu has grown up with a clever, willful, dear Turkish girl by his advice. Mahinbanu considers herself the descendant of the Turkic ruler Afrasiyab. These facts do not doubt that Mahinbanu and Shirin are the Turks.

İn the sources, the name Afrasiyab is explaind in high-power,brave meanings.There is also a saga of the Turks associated with the Alp Er Tonga.This epic is widely reflected in the Shahnameh of Firdovsi.The legends about him are vital for us to show the benefits of the Alp Er Tonga,as well as the cultural heritage of Turkish culture,along with heroic and heroic qualities of Tonga.

**Rəyçi: Seyfəddin Rzasoy**
**Filologiya elmləri doktoru, professor**